# Erməni terroru heç vaxt unudulmayacaq



**Yaşadığımız yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsi olaraq qəbul edilir və ağlın, idrakın sivil nöqtəyə yüksəldiyi bu zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, qəbuledilən deyil. Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünya bundan hələ də xilas ola bilməmişdir.**

Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı da terror aktlarının, soyqırımların acı nəticələrini yaşamışdır. Ermənistan tərəfindən zaman-zaman etnik terrora məruz qalan Azərbaycan xalqına qarşı törədilən cinayətlər insan əxlaqı ilə bir araya sığmır. Bu terror aktları əsl faşist xislətlidir. Elə götürək 44 günlük Vətən müharibəsini. Həmin dövrdə xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Törədilən terrorlar erməni separatçılarının vəhşi simasını bir daha üzə çıxardı. Xüsusilə Gəncə, Tərtər, Bərdə, Mingəçevirdə mülki əhaliyə qarşı törədilən terror aktları erməni millətçilərinin təcavüzkar simasını bir daha ortaya qoydu.

Lakin 30 illik həsrətə son qoyan 44 günlük ədalət müharibəsinin əks-sədası bütün dünyaya səs saldı. Rəşadətli Azərbaycan Ordusu qısa vaxt ərzində Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müasir hərb tarixinə əsl qəhrəmanlıq dastanı yazdı. "Yeni ərazilər uğrunda müharibə" aparmaq iddiası ilə müharibə aparan ermənilərin cavabı birdəfəlik verildi.

Həmin dövrdə gəncəlilər də ağır günlər yaşadılar. Oktyabrın 4-də şəhərə ilk raket hücumu edildi. Nəticədə bir nəfər həlak oldu, 36 nəfər müxtəlif xəsarətlər aldı. Şəhərin Nəriman Nərimanov, Əziz Əliyev, Əli Nəzmi və digər küçələrindəki evlər dağıldı və bir neçə nəqliyyat vasitəsinə ziyan dəydi.

Oktyabrın 5-də atılan raketlər isə Gəncənin "Grand Qafqaz" ticarət kompleksinə düşdü, 3 nəfər müxtəlif bədən xəsarətləri aldı, ticarət mərkəzinə külli miqdarda ziyan dəydi.

Bununla kifayətlənməyən ermənilər oktyabrın 8-də üçüncü dəfə Gəncəyə raket hücumu etdilər. Gecə saat 3 radələrində atılan raket Həsən Əliyev və Pərviz Səmədov küçələrində yerləşən qeyri-yaşayış sahəsində xeyli dağıntıya səbəb oldu.

Azərbaycan Ordusunun cəbhədəki uğurlarına cavab verə bilməyən erməni cəlladları oktyabrın 11-də və 17-də gecə saatları şəhərə növbəti raket hücumları etdilər. 31 ev tamamilə dağıldı, xeyli sayda mülki şəxs dağıntıların altında qaldı. Nəticədə 15 nəfər həlak oldu, 54 nəfər yaralandı. Ümumilikdə Gəncəyə atılmış raket zərbələri nəticəsində 6-sı uşaq olmaqla 26 nəfər həlak olmuş, 31-i uşaq olmaqla 142 nəfər müxtəlif bədən xəsarətləri almışdır. 3 ailənin üzvü olan 4 uşaq hər iki valideynini itirmişdir.

Həmin hadisələrdən 5 il ötür. Lakin gəncəlilər o qanlı-qadalı günləri unutmurlar. Həmin ağır günlərdə Prezident İlham Əliyevin tapşırığı ilə şəhər rəhbərliyi dağılmış ərazilərdə olur, insanlarla söhbət edərək onları təmkinli olmağa çağırır, terrorun nəticələrinin qısa zamanda aradan qaldırılacağını deyirdi.

Belə də oldu. Üstəlik, Gəncəyə edilmiş raket hücumları nəticəsində həlak olanların xatirəsini əbədiləşdirmək üçün dövlət başçısı xüsusi Memorial Kompleksinin tikintisi ilə bağlı sərəncam imzaladı. 4 hektar ərazidə inşa edilən Gəncə Memorial Kompleksi təkcə bir abidə deyil, həm də tarixi sənəd, böyük yaddaş məkanına çevrildi. Burada ermənilər tərəfindən təkcə müharibə zamanı törədilən terrorları deyil, həm də onların Azərbaycan xalqına qarşı müxtəlif dövrlərdə həyata keçirdikləri cinayətləri - Qərbi Azərbaycan əhalisinin deportasiyası, Qarabağ və Şərqi Zəngəzurdan məcburi köçkünlük, mina terroru kimi faşist əməllərini sübut edən sənədlər toplanıb.

Söz yox ki, Memorial Kompleks bu gün hər bir gəncəliyə o qanlı-qadalı günləri xatırlatmaqla yanaşı, həm də çox da uzaq olmayan həmin müharibənin ağrı-acılarından dərs götürməyi aşılayır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.-27 sentyabr (№ 207).- S.15.